Hələ lap qədim dövrlərdə cəmiyyətdə insan həm fərdi (özü və özünün statusu barəsində məlumat vermək üçün), həm də qrup səviyyəsində (ailəsini, tayfasını, xalqını fərqləndirməkdən ötrü) müxtəlif rəmzlərdən istifadə edirdi. Bayraq və gerblərdəki simvollar da bu tip müəyyənləşdirici amillərdir.

Bayraqlar öz mənşəyini veksilloids adı ilə tanınan qədim bayraqlardan (ştandartlardan) götürüb. Onların ucunda quş və ya heyvan fiquru olurdu. Bu da sürət, qüvvə və döyüş ruhunu assosiasiya edirdi. Ştandartlar Yaxın Şərqdə təxminən 5000 il əvvəl peyda olub. Misirlilər belə standartlardan həm torpaq üzərində (onu ya əllərində aparır, ya da yüklərin üzərinə bərkidirdilər), həm də dənizlə köç edən zaman istifadə edirdilər. Çarlıqların hər bir ərazisinin öz ştandartı olurdu. Bəzi fiqurlar allahları və ruhları təmsil edirdi.

Assuriyalıların sevimli emblemi ox atan Aşurun təsviri idi. Bibliyaya görə isə İsrailin qədim tayfaları iclaslara, bayraq altında yığışırdılar. Amma bu bayrağın dəqiq forması qeyd olunmur.

İlk Roma ştandartı manipulus olub. Nizəyə bərkidilmiş saman dəstindən ibarət olan bu bayraqdan əsgərlərin manipula toplanması və əlaqə üçün islifadə edilirdi. Sonradan hər bir manipul öz heyvan təsvirli emblemini daşımağa başlayır. Ən başlıca emblem qartal fiquru hesab edilirdi. Yupiter atributu olan qartal əvvəlcə legionun, sonra isə bütün Roma imperiyasının simvoluna çevrilir.

Qərb aləmində ilk əsl bayraq veksillum oldu (bayraqlardan bəhs edən veksilologiya elminin adı buradan götürülüb). Atlı üçün nəzərdə tutulan bu bayraq üstü yazılı və ya fiqur təsvirli tünd qırmızı kvadrat qumaşdan ibarət idi. Ştandart tirə bərkidilərək öndə aparılırdı. Bizim eranın 312-ci ilində xaçpərəstliyi qəbul edən imperator Böyük Konstantin bayraq üzərində dünyəvi və dini hakimiyyəti birləşdirmək qərarına gəlir. Onun bu labarumu forma etibarı ilə veksilluma bənzəsə də, qumaşın üzərində Konstantinin portreti və İsanı təmsil edən monoqram təsvir edilmişdi.

Şüvülə yan tərəfdən bərkidilən ilk bayraq isə Çində yaranıb. Çjou sülaləsinin əsasını qoyan imperator Çjou öndə onun gəlişini xəbər verən ağ bayrağın aparılması əmrini verir. Bu bayraq həm də onun hakimiyyəti və böyüklüyünü göstərməli idi.

Şüvülə bərkidilmiş bayraq ideyası Çindən Hindistana, oradan isə Yaxın Şərqə keçir. Belə formalı bayraqlara, Qərbdə IX əsrin əvvəllərində vikinqlərdə rast gəlinsə də, onlardan yalnız xaç





yürüşlərində (1095-1272) geniş istifadə etməyə başlayırlar. Səlimçilərin bu formalı bayraqları sarasinlərdən (Afrika müsəlmanlarından) götürdükləri güman edilir.

XII əsrdə yaranan heraldika isə hansısa şəxsin hərbi və ya sosial statusunu göstərən yeni formalı bayraqların yaranmasına gətirib çıxarır. Onlar simvol və şüarlarla bəzədilmiş ya enli, ya da ensiz rəngli cəngavər ştandartlarından ibarət olurdu. Kvadrat və düzbucaqlı bayraqlar, əsasən gerbin daşıyıcısı idi. Müasir dövlətlər formalaşdıqda isə monarxların gerb təsvirli əcaib bayraqları daha asan – xaç və zolaq simvolikalı bayraqlarla əvəz edilir.




***Yunion Cek***

İttifaqın (birliyin) simvolu olan lik bayraq – «Yunion fləq» (indi «Yunion Cek» kimi tanınır) 1606-cı il aprelin 12-də İngiltərə və Şotlandiyanın I İakovun hakimliyi altında birləşməsindən üç il sonra qəbul edilib. Bayraq ağ fonda qırmızı xaç (İngiltərə hamisi müqəddəs Georginin xaçı) və göy rəng üzərində ağ diaqonal xaç (Şotlandiya hamisi müqəddəs Andreyin xaçı) kombinasiyasından ibarət idi. İrlandiyanın Böyük Britaniyaya birləşməsindən sonra isə bu bayrağa «müqəddəs Patrikin xaçı» - diaqonal qırmızı xaç da əlavə edilir. Bayrağın "Cek" adı daşımasının bir neçə səbəbi var. Bəziləri bunu I İakovun "Jacques" kimi yayılan adından götürulduyünü deyir. Bəziləri isə bu bayrağın ilk dəfə novbədə donanma üçün nəzərdə tutulduğu və gəminin burnundakı qyusştok (jack-staff) - dorun adını daşıdığını deyirlər.

«Yunion Cek»ə Yeni Zelandiyanın Sakit okeandakı Niue ərazisinin, Cənubi Afrika və Amerikanın Havay ştatının bayrağında da rast gəlmək olar.

***Ulduzlar və zolaqlar***

"Yunion fləq" Şimali Amerikada ilk dəfə 1607-ci ildə Virciniyada peyda olub. O, 1775-ci ilə qədər Britaniya müstəmləkələrini təmsil edirdi. Üsyançılar Britaniya müstəmləkələrini təmsil edirdi. Üsyançılar müstəqillikləri uğrunda mübarizəyə başladıqdan sonra isə öz bayraqlarını qaldırırlar. Onların üzərində parıltılı ilan, zınqırov, qanqal və müxtəlif şüarlar təsvir edilirdi.

13 müstəmləkəni təmsil edən ilk bayraq isə 1776-cı ildə qitə ordusunun rəsmən elan edildiyi gün qaldırılıb. Onu «Konqress kolorz»- «Konqresin rəngləri" adlandırırdılar. Bayrağın üzərində ağ və qırmızı rəngdə 13 zolaq var idi. Amma bura «Yunion fləq» də daxil idi. Bu, Amerika ərazilərinin Britaniyanın bir hissəsi olaraq qalmasına işarə idi. Birləşmiş Ştatların indiki «Starz end Straypz» («Ulduzlar və zolaqlar») adı ilə tanınan bayrağı 1777-ci il iyunun 14-də yaradılıb. O zaman Konqres Birləşmiş Ştatları 13 ağ və qırmızı zolaq və göy rəngin fonunda 13 ağ ulduzun təmsil edəcəyi qərarını verir. Sonradan ştatların sayı artdıqca ulduzların sayı da artır və hazırda onlar 50-yə çatıb.

Ulduz və zolaqlardan simvol kimi geniş istifadə edən daha bir ölkə 1822-ci ildə azad olmuş zənci qullar üçün Amerika müstəmləkəsi kimi yaradılan Liberiyadır. Onun bayrağında 11 qırmızı və ağ zolaq, göy haşiyədə bir ağ ulduzu var.

***Trikolor***

Bir çox milli bayraqlar isə trikolordan - üç zolaqdan ibarətdir. Ən erkən trikolor Danimarkanın Prinsfləqi olub. O, narıncı, ağ və göy üfüqi zolaqlardan ibarət idi. Bu rənglər XVI əsrdə hollandların ispanlara qarşı azadlıq mübarizəsinə başçılıq edən I Vilhelmin rəngləri idi. Təxminən 1630-cı ildə narıncı zolaq qırmızı ilə əvəz edilir. Amma ilkin variant XVII əsrdə hollandların müstəmləkəsinə çevrilən Cənubi Afrikanın milli bayrağında hələ də qalır.

Danimarka trikolorundan bir çox bayraqlar başlanğıcını götürüb. Onlardan biri də Rusiyanın bayrağıdır. 1690-cı illərdə I Pyotr holland tərsanələrində işləyirdi. Rusiyaya qayıtdıqda isə o, öz ölkəsi üçün Hollandiya bayrağı rənglərinin tərsinə sıralandığı bir bayraq təsdiqləyir. Bu bayraq 1917-ci il inqilabına qədər istifadə edilir. Onu yalnız 74 il sonra Kreml üzərində görmək mümkün oldu.

Daha məşhur bir trikolor isə Fransaya məxsusdur. Bu bayraq üzərində qırmızı, ağ və göy rəngli şaquli zolaqlar var. İlk dəfə o, 1789-cu il inqilab vaxtı qaldırılıb və azadlıq, bərabərhüquqluluq və qardaşlıq prinsiplərini simvolizə edir.

Azərbaycanın milli bayrağı da trikolor nümunəsinə əsaslanır.

Dövlət bayrağımız - mavi, qırmızı və yaşıl zolaqların üfüqi yerləşməsindən ibarətdir. Bayrağın or-

tasında ağ rəngli aypara və səkkizguşəli ulduz var. Dünyanı, əzəməti və sərvəti simvolizə edən mavi rəng həm də türkçülüyün rəmzi sayılır. Bayrağın mərkəzi zolağını təşkil edən qırmızı rəng müasirliyin, aşağıdakı yaşıl rəng isə islamın rəmzidir.

Azərbaycan bayrağına xüsusi gözəllik verən aypara vaxtilə Bizans imperiyasının bayrağını bəzəyib. Türklər Bizansı işğal etdikdən sonra həmin simvolu da özününküləşdiriblər. Tezliklə aypara bütün müsəlman dövlətlərinə yayılaraq həmrəyliyin, dövlətçiliyin, azadlığın və əliaçıqlığın simvoluna çevrilib.

Səkkizguşəli ulduza gəlincə, onun ehtiva etdiyi mənalar haqqında bir neçə versiya var. Onlardan birinə görə, səkkiz rəqəmi türk dövlətlərinin, başqa birinə görəsə Azərbaycanın böyük sərkərdələrinin sayını göstərir. Digər bir mülahizəyə görə, ulduzun guşələrinin hər biri Şimali Azərbaycandakı xanlıqların birliyini simvolizə edir. Başqa bir versiyada deyilir ki, səkkiz Azərbaycanda məskunlaşmış etnik qrupların sayını göstərir.

Üçrəngli bayrağımız Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) mirasıdır. Amma bu, cümhuriyyət dövrünün ilk və yeganə bayrağı olmayıb. Cümhuriyyətin ilk bayrağı 1918-ci il iyunun 24-də qəbul edilib. Həmin bayraq qırmızı rəngli parça üzərində ağ rəngli aypara və səkkizguşəli ulduzdan ibarət idi. Amma həmin il noyabrın 4-də bayraq dəyişdirildi və oraya türkçülüyün və islamın rəmzləri əlavə edildi.

## Orijinallar

Rənglər arasında daha çox istifadə edilənі qırmızıdır. Daha sonra ağ, göy, sarı və qara rənglər gəlir. Liviya bayrağında yalnız bir rəng istifadə edən yeganə ölkədir. 1977-ci ildə qəbul edilən yaşıl bayraq polkovnik Qəzzafinin yaşıl inqilab»ının simvoludur.

Yeganə kvadrat şəkilli bayrağın sahibi İsveçrədir. Qeyri-adi formada olan daha bir bayraq isə Nepala məxsusdur. XIX əsrdə yaranan bu bayraq iki üçbucaqlı bayrağın birləşməsindən ibarətdir. Yuxarıda yerləşən bayraq üzərində aypara, aşağıdakında isə günəş təsvir edilib.

Günəş simvoluna bir çox bayraqlarda rast gəlinir. Daha çox tanınanı Yaponiyanın «günəş diski»dir. Bu həm ölkənin adı Nixon-Kokunu («gündoğar ölkə»), həm də imperatorun günəş nəslindən olması kimi dini inamın simvoludur. Tayvanın da bayrağının üzərində 12 nöqtə ilə əhatələnmiş ağ günəş var. 12 nöqtə günəşin günün 12 saatında görünməsinə işarədir.

Tez-tez rast gəlinən simvollardan biri də ulduzdur. 50 ulduzlu Amerika bayrağından sonra 23 ulduzlu Braziliya bayrağı gəlir. Malayziya bayrağındakı ulduz isə ən çox guşəlidir. 14 uclu ulduz 13 ştatın və paytaxtın göstəricisidir.

Ən böyük heyvan təsvirli bayraq Şri-Lankadadır. Onun üzərində şir təsvir edilib. Butan Krallığının bayrağında isə böyük ağ-qara əjdaha çəkilib.

Ən böyük quş Albaniyanın bayrağındakı ikibaşlı qartaldır. Bu ölkə «qartallar ölkəsi» adlandırılır. Meksika bayrağında isə qartal caynaqları arasındakı ilanı boğur.

Ən böyük bitki təsviri isə Kanada bayrağındadır. 1965-ci ildə qəbul edilən bayraq üzərində ağcaqayın yarpağı təsvir edilib. Livanın bayrağı üzərində isə sidr ağacı və ceviz əks olunub.

Bəzi bayraqlarda isə dini və ya fəlsəfi simvolları görmək olar. Məsələn, İsrailin bayrağında altı güşəli «Davidin ulduzu» təsvir edilib. Bir çox bayraqlarda isə islamın ənənəvi simvolu – ulduz aypara təsvir edilir. Hindistanın bayrağındakı «Qanun çarxı» buddizmin göstəricisidir.

Yazının xüsusi əhəmiyyət daşıdığı yeganə bayraq Səudiyyə Ərəbistanına məxsusdur. Yaşıl fonda ərəb dilində «Allahdan böyük tanrı yoxdur və Məhəmməd onun elçisidir» yazılıb.

Portuqaliya bayrağı üzərində dəniz ekspedisiyalarının və XVI əsr kəşflərinin simvolu olan qədim naviqaysiya aləti əks olunub. Zair bayrağının başlıca emblemi isə azadlıq uğrunda mübarizənin rəmzinə çevrilən məşəl tutan əldir.

Papaqvay bayrağı hər iki tərfində müxtəlif şəkilləri olan yeganə bayraqdır. Onun bir tərfində dövlət emblemi – May Ulduzu, o biri tərəfində isə şir təsvir edilib.

Ən beynəlmiləl bayraq isə Birləşmiş Millətlər Təşkilatınındır. Bayrağın göy fonunda zeytun budaqları ilə əhatələnmiş dünya xəritəsi əks edilib.

Cənub qütbündə qaldırılan ilk bayraq Norveçə (1911-ci il), Şimal qütbündə isə Amerikaya (1909-cu il) məxsus olub.

Ayın səthinə sancılan ilk bayraq da (1969-cu il) amerikalılarındır. Ən yüksək dağı – Everesti fəth edən (1953) bayraq isə Britaniya bayrağı olub.

Bu gün həm qurudakı, həm də dənizdəki bayraqlar əvvəlkindən daha rəngarəng funksiyalar daşıyırlar. Müxtəlif rənglər və simvollar vasitəsilə onlar dövlətləri, əyalətləri, şəhərləri, silahlı qüvvələri, dövlət idarələrini, dini və etnik qrupları, kilsə və məscidləri, akademik idarələri, klubları, gənclər və kommersiya təşkilatlarını, hava və dəniz yollarını, regional birlikləri və beynəlxalq təşkilatları təmsil edirlər. Bütün bayraqlar vacib rol oynasa da, milli bayraqlar daha önəmli yer tuturlar. Çünki onlar daha güclü emosiyalar yaradır. İnsan qürurundan onu qaldıra, nifrətindən isə yandıra bilər.

**Tünzalə BABAYEVA**